# Şəhidin arzuları yerinə yetirildi

**Yurd həsrəti, nisgili ilə keçdi uşaqlıq illəri. 1990-cı il iyunun 3-də Füzuli rayonunun Musabəyli kəndində dünyaya gələn Vüsal Məmmədov körpə ikən el-obasından didərgin düşdü. O zaman üç yaşı vardı...**



Azərbaycan xalqının humanistliyindən istifadə edərək torpaqlarında yaşamaq üçün yer almış, məskən salmış təcavüzkar ermənilər XX əsrin sonlarında yenə öz mənfur xislətlərini göstərdilər. Azərbaycandan yeni ərazilər qoparmaq iddiasına düşdülər. Xarici havadarlarından aldıqları yardımlarla güclənmiş, təpədən-dırnağa qədər silahlanmış erməni quldurları Qarabağı, Şərqi Zəngəzuru müharibə ocağına çevirdilər. Dinc, günahsız insanları öz evlərində, öz yurdlarında şəhid etdilər.

Qarabağda, Şərqi Zəngəzurda yaşayan bütün azərbaycanlılar kimi, Vüsalgil də dədə-baba yurdlarından baş götürüb çıxmalı oldular. Üç yaşlı uşağın yadında nə qalacaqdı ki... Vüsal Məmmədov üçün dünyaya göz açdığı yurd - Füzuli rayonunun Musabəyli kəndi sanki bir xəyal idi. Bu xəyal böyüklərin danışdıqları ilə durulub aydınlaşırdı. Bir də anası Xasa Məmmədova ona tez-tez Birinci Qarabağ döyüşləri zamanı şəhid olmuş qardaşından danışırdı. Vüsal dayısı və onun kimi Vətən torpaqları uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinə ehtiramla böyüyürdü.

İllər keçir, Vüsal Məmmədovun doğma yurdunu görmək istəyi ilə bərabər düşmənə olan nifrəti də artırdı. Vüsal gələcəyin hərbçisi olmaq arzusu ilə yaşayırdı.

O, ailəsi ilə birlikdə uzun illər çadır şəhərciyində yaşadı. Məcburi köçkünlük həyatının çətinlikləri ağır mənəvi yük kimi Vüsalın da qəlbinə çökdü. Sonralar ailəsi ilə yeni salınan Zobucuq qəsəbəsində məskunlaşdı. Vüsal Füzuli rayonu Zobucuq qəsəbə 26 saylı tam orta məktəbini bitirdi.

Vüsal Məmmədov həqiqi hərbi xidmətini Dəniz Donanmasında yerinə yetirdi. Sonra Vətənin keşiyində müddətdən artıq həqiqi hərbi xidmət quluqçusu kimi dayandı. O, 2015-ci ildə hərbi hissə nəzdində təməl xüsusi təyinatlı kursunu bitirdi. Vüsal Məmmədov əvvəl kiçik miçman rütbəsini aldı. 2017-ci ildə isə miçman rütbəsinə yüksəldi. Xidmətini taqımın manqa komandiri, Xüsusi Təyinatlı Qrupun dalğıc-kəşfiyyatçısı olaraq davam etdirdi. Peşəkar, bacarıqlı hərbçi Vüsal Məmmədov 2019-cu ildə Azərbaycan Ordusunun 100 illiyi medalı ilə təltif edildi.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Vətən torpaqlarını işğaldan azad etmək uğrunda döyüşlərə atılmaq istəyən gənclərimizdən biri oldu. O, Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlı piyadalarının tərkibində döyüşə qatıldı.

Döyüş yolu müharibənin ilk günü - sentyabrın 27-də Murov dağından başladı. İlk tapşırığı döyüşçü yoldaşları, silahdaşları ilə birlikdə layiqincə yerinə yetirdi. Növbəti tapşırıq Cəbrayıl rayonu istiqamətində oldu...

Ləqəbi Rembo idi. Hərbçi dostları onu belə çağırırdılar. Vüsal Məmmədov döyüşlərdə düşmənə aman vermirdi. O, Cəbrayılın azad edilməsində, eləcə də bir sıra yüksəkliklərin alınmasında şücaət göstərdi. Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlısı Vüsal döyüş meydanlarında düşmənin bağrını yaran qəhrəman Azərbaycanın oğullarından biri idi.

Vüsal Məmmədovun da tərkibində olduğu qrupun növbəti tapşırığı Füzuli istiqamətində oldu. Həmin döyüşlərdə strateji mövqeyə malik bir çox ərazinin alınmasında iştirak etdi. Vüsal Məmmədov oktyabrın 12-də gərgin döyüşlərdə şəhid oldu. Füzuli rayonunun Babı qəbiristanlığında dəfn edildi.

Onun döyüş yolunu davam etdirən vətənpərvər oğullar Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq Vətən torpaqlarını işğaldan azad etdilər. Şəhid Vüsal Məmmədov kimi qəhrəmanlarımızın qisası alındı. Və onların torpaqlarımızı işğaldan azad etmək arzusu yerinə yetdi.

Vüsal Qüdrət oğlu Məmmədov döyüşlərdə göstərdiyi şücaətə görə, ölümündən sonra "Qarabağ ordeni", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

Müharibə başlayanda Vüsal yeddi ay idi ki, ailə qurmuşdu. Ata olacaqdı. Oğluna ad da seçmişdi. O, şəhid olduqdan üç ay sonra oğlu dünyaya gəldi. Şəhidin istəyi ilə oğluna Hüseyn adı verildi...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.11.